TƏSDİQ EDİLMİŞDİR
Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi
Farmakoloji və Farmakopeya
Ekspert Şurasının sədri

____________ E.M.Ağayev

“ __ “ _________2015-cü il

Dərman vasitəsinin istifadəsi üzrə təlimat (xəstələr üçün)

**FESTAL®** drajelər
FESTAL®

**Tərkibi**
*Təsiredici maddə:* 1 drajenin tərkibində 192 mq pankreatin (lipaza-6000 TV FİP, amilaza 4500 TV FİP, proteaza 300 TV FİP), 50 mq hemisellüloza, 25 mq öküz ödünün ekstraktı vardır.
*Köməkçi maddələr:* natrium-xlorid, etilvanilin, gənəgərçək yağı, saxaroza, metilparaben, jelatin, maye qlükoza, talk, sellüloza asetat ftalat, kalsium-karbonat, akasiya kitrəsi, qliserin, polietilenqlikol 6000, titan 4-oksid.

**Təsviri**
Ağ, parlaq, zəif vanil iyli girdə drajelər.

**Farmakoterapevtik qrupu**
Həzm fermenti preparatı.
**ATC kodu**: A09AA02

**Farmakoloji xüsusiyyətləri**
Preparat mədəaltı vəzinin sekretor funksiyasının və qaraciyərin ödqovucu fünksiyasının çatışmazlığını kompensasiya edir.
Pankreatinin tərkibinə daxil olan fermentlər (amilaza, lipaza, proteaza) karbohidratların, yağların və zülalların həll olmasını asanlaşdırır və beləliklə onların nazik bağırsaqda tam sorulmasını təmin edir.
Hemiselloza fermenti qida liflərinin ayrılmasını asanlaşdırır, həmçinin həzm proseslərini yaxşılaşdıraraq bağırsaqda qaz əmələgəlməni azaldır.
Öd ekstraktı ödqovucu təsir göstərir, yağların və yağda həll olan vutaminlərin sorulmasını yüngülləşdirir, mədəaltı vəzi lipazasının ifrazına səbəb olur.

**İstifadəsinə göstərişlər**
Mədəaltı vəzin xarici sekretor funksiyasının çatışmazlığı (xroniki pankreatit, mukovissidoz).
Mədə, bağırsaq, qaraciyər, öd kisəsinin xroniki-distrofik degenerativ xəstəlikləri; bu orqanların rezeksiya və ya şüalanmadan sonrakı vəziyyəti (həzm pozğunluğu, meteorizm, diareya ilə müşayiət olunan).

Mədə-bağırsaq funksiyası normal olan şəxslərdə qida yüklənməsi zamanı, eyni zamanda çeynəmə funksiyası pozğunluğu, uzunmüddətli məcburi immobilizasiya, oturaq həyat tərzi zamanı həzmi yaxşılaşdırmaq məqsədilə.
Qarın boşluğu orqanlarının rentgen və ultrasəs müayinəsinə hazırlanması.

**Əks göstərişlər**
Preparatın komponentlərindən hər hansı birinə qarşı yüksək həssaslıq, kəskin pankreatit, xroniki pankreatitin kəskinləşməsi, qaraciyər çatışmazlığı, hepatit, mexaniki sarılıq, öddaşı xəstəliyi,öd kisəsinin empieması, bağırsaq keçməzliyi.

**Xüsusi göstərişlər**
Mukovissidoz zamanı ehtiyatla qəbul olunmalıdır, belə ki, doza qəbul olunan qidanın miqdarına uyğun olmalıdır.

**Hamiləlik və laktasiya dövründə istifadəsi**
Hamiləlik və laktasiya dövründə yalnız çox zəruri hallarda istifadə olunmalıdır.

**Digər dərman vasitələri ilə qarşılıqlı təsiri**
PASK, sulfanilamid preparatları, antibiotiklər festalla birgə qəbul olunduqda onların sorulması artır; dəmirin sorulması azala bilər. Kalsium-karbonat və ya maqnezium-hidroksid tərkibli antiasidlərlə birgə istifadə zamanı festalın təsiri zəifləyə bilər.

**İstifadə qaydası və dozası**
Preparat daxilə qəbul olunur. Draje bütöv halda, su ilə qəbul olunmalıdır. Böyüklər: gündə 3 dəfə 1-2 draje. Daha yüksək dozalar həkim tərəfindən təyin edilir.Uşaqlar həkim təyinatına əsasən qəbul etməlidirlər. Müalicə müddəti bir neçə gündən (qida yüklənməsi zamanı həzm pozğunluğu) bir neçə aya və ya ilə qədər (daimi əvəzedici müalicəyə ehtiyac olduqda) davam etdirilə bilər. Rengenoloji və ya ultrasəs müayinəsindən əvvəl müayinəyə 2 gün qalmış gündə 2-3 dəfə 2 draje.

**Əlavə təsirləri**
Allergik reaksiyalar, ürəkbulanma, diareya, qarında ağrılar, öd turşularının endogen sintezinin azalması.Uzunmüddətli yüksək dozada istifadə zamanı hiperurikozuriya, plazmada sidik turşusunun yüksəlməsi inkişaf edə bilər.
Uşaqlarda yüksək dozada istifadə zamanı perianal və ağız boşluğunun selikli qişasının qıcıqlanması yarana bilər.

**Buraxılış forması**
100 draje içlik vərəqə ilə birlikdə karton qutuya qablaşdırılır..

**Saxlanma şəraiti**
25ºC-dən yuxarı olmayan temperaturda və uşaqların əli çatmayan yerdə saxlamaq lazımdır.

**Yararlılıq müddəti**
3 il.
Yararlılıq müddəti bitdikdən sonra istifadə etmək olmaz.

**Aptekdən buraxılma şərti**
Reseptsiz buraxılır.

**İstehsalçı**
Sanofi India Limited,Hindistan.